**Azərbaycan Texniki Universitetinin Elmi Şurasının 5 iyul 2025-ci il tarixli iclasının qərarı ilə qəbul edilmişdir. (protokol № 8)**

## SmartTech İnnovatorlar Mərkəzinin

## ƏSASNAMƏSİ

### 1. Ümumi Müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Texniki Universitetinin (bundan sonra – Universitet) SmartTech İnnovatorlar Mərkəzinin (bundan sonra – Mərkəz) fəaliyyət istiqamətlərini, vəzifələrini, hüquqlarını və fəaliyyətinin təşkili qaydalarını müəyyən edir.

1.2. Mərkəz Universitetin Elmi Şurasının qərarına əsasən yaradılır və ləğv edilir.

1.3. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Universitetin Nizamnaməsini, Universitet rektorunun əmr və sərəncamlarını, Universitet Elmi Şurasının qərarlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4. Mərkəz öz vəzifələrini yerinə yetirən və hüquqlarını həyata keçirən zaman Universitetin digər struktur bölmələri, həmin bölmələrə daxil olan qurumlar və digər struktur vahidləri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

### 2. Mərkəzin əsas vəzifələri

Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq Mərkəzin vəzifələri aşağıdakılardan ibarətdir:

2.1. Universitetin istedadlı tələbələrini üzə çıxarmaq, fərdi potensiallarını kəşf etmək;

2.2. Tələbələrin əmək bazarı ilə real tanışlığını təmin etmək, karyera məqsədlərini müəyyənləşdirməyə və yol xəritəsini tərtib etməyə dəstək olmaq;

2.3. Mühəndis ideyalarını və innovativ layihələri təşviq etmək və dəstəkləmək;

2.4. Tələbələrin mühəndis bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün təlimlər keçirmək, mentorluq xidməti göstərmək;

2.5. Tələbələri layihə yarışmaları, olimpiadalar və hakatonlara hazırlamaq;

2.6. Tələbələrin sertifikat imtahanlarına hazırlaşmalarına kömək etmək;

2.7. Tələbələrdə təşəbbüskarlıq ruhunun formalaşmasına dəstək vermək;

2.8. Tələbələrin startap komandalarını qurmalarına kömək etmək;

2.9. Universitetin Tədqiqat və İnkişaf Şöbəsi, Texnologiyanın Transferi Ofisi, Tələbə Elmi Cəmiyyəti və digər müvafiq struktur bölmələri ilə əməkdaşlıq etmək.

2.10.Mərkəzin fəaliyyət istiqamətləri və səlahiyyətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

2.11. Mərkəzin iş planını, fəaliyyəti ilə bağlı hesabatları müəyyən olunmuş dövrlər üzrə hazırlamaq.

## 3. Mərkəzin hüquqları

Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Mərkəzin hüquqları aşağıdakılardan ibarətdir:

3.1. Mərkəz daxilində vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar olaraq öz səlahiyyətləri daxilində Universitetin struktur bölmələrinə müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları və ya sənədləri almaq;

3.2. Mərkəzin funksional fəaliyyəti ilə bağlı və səlahiyyəti daxilində rəhbərliyin razılığı ilə digər struktur bölmələrindən zəruri sənədlərin təqdim olunmasını tələb etmək;

3.3. Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini araşdırmaq və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlamaq;

3.4. Müəyyən dövrlər aralığında Mərkəz daxilində və Universitetin digər struktur bölmələrində fəaliyyət planının təkmilləşdirilməsi, səlahiyyətlərin dəqiqləşdirilməsi və inkişaf etdirilməsi barədə təkliflər hazırlamaq;

3.5. Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 4. Mərkəzin fəaliyyət istiqamətləri

4.1. Təlim, seminar, master-klasların keçirilməsini təmin etmək;

4.2. Tələbələr üçün konsultasiya və mentorluq xidməti vermək;

4.3. Startap komandalarının təşkilini həyata keçirmək;

4.4. Tələbələrin layihə çalışmaları üçün universitetin emalatxana və laboratoriyalarından istifadəsini koordinasiya etmək;

4.5. Tələbələrə layihələri üçün prototiplərin hazırlanmasında yardım göstərmək;

4.6. Tələbələrə müxtəlif yarış və müsabiqələrə hazırlaşmaqda kömək etmək.

## 5. Mərkəzin fəaliyyətinin təşkili

5.1. Mərkəzin strukturu və ştat vahidlərinin sayı Universitetin rektoru tərəfindən təsdiq edilir.

5.2. Mərkəzə Universitetin rektorunun əmri ilə təyin olunmuş Mərkəz müdiri rəhbərlik edir. Mərkəz müdiri öz fəaliyyətini Universitetin rektoru tərəfindən təsdiq olunmuş vəzifə təlimatına əsasən həyata keçirir. Rektor tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla, heç kəs Mərkəzin fəaliyyətinə müdaxilə edə bilməz.

5.3. Mərkəzdə işçilər (əməkdaşlar) arasında vəzifə bölgüsü Mərkəz müdiri tərəfindən müəyyən edilmiş vəzifə təlimatları əsasında aparılır.

5.4. Mərkəz əməkdaşlarının vəzifə və məsuliyyətləri onların vəzifə təlimatları ilə müəyyən edilir.

5.5. Əsasnamədə nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsinə görə birbaşa məsuliyyəti Mərkəz müdiri daşıyır.

5.6. Mərkəz öz fəaliyyəti haqqında aylıq, rüblük və illik hesabatları rektora təqdim edir.

5.7. Mərkəz müdiri olmadığı təqdirdə, onun səlahiyyətlərini rektorun əmri əsasında Mərkəz əməkdaşlarından biri həyata keçirir.

## 6. Mərkəzin məsuliyyət əsasları

6.1. Mərkəz qanunvericilik normalarının düzgün tətbiqi və səlahiyyətləri dairəsinə aid edilən hüquqi-təminat işlərinin vaxtında, tam formada təşkilinə və icrasına görə məsuliyyət daşıyır.

6.2. Mərkəzin müdiri və əməkdaşları öhdəliklərinə aid olan bütün sənədlərin Azərbaycan Respublikasının qanunvericilik aktlarına və Universitetin Nizamnaməsində nəzərdə tutulmuş müddəalara uyğun formada həyata keçirilməsinə görə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələr çərçivəsində şəxsən məsuliyyət daşıyır.